# Təmiz ekoloji mühit, sağlam həyat naminə

## *Qlobal aləmdə təxirəsalınmaz problemlərin həllində Azərbaycanın COP29-a ev sahibliyi dünya üçün bir nümunə olacaq*

"2023-cü ilin dekabrında baş tutmuş sonuncu forumdan sonra Azərbaycan yekdilliklə BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibliyi edəcək ölkə seçilmişdir. Bu, Azərbaycanın qlobal miqyasda güclü diplomatiyasının əlaməti və çoxtərəfli danışıqlar zamanı etibarlı tərəfdaş nüfuzunun təsdiqidir. Bundan əvvəl Azərbaycan BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlarda uğurla sədrlik etmişdir". Bu fikirləri Prezident İlham Əliyev ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda bildirib. Dövlət başçısı qeyd edib ki, Bakı dünyanın neft sənayesinin yarandığı yerdir. Qarşıdan gələn noyabr ayında isə on minlərlə iştirakçı iqlim dəyişmələri nöqteyi-nəzərindən planetimizin gələcəyini müzakirə etmək üçün COP29-la bağlı Bakıya səfər edəcək.

**(davamı 5-ci səhifədə)**

# Təmiz ekoloji mühit, sağlam həyat naminə

## *Qlobal aləmdə təxirəsalınmaz problemlərin həllində Azərbaycanın COP29-a ev sahibliyi dünya üçün bir nümunə olacaq*



(əvvəli 1-ci səhifədə)

2015-ci ildə keçirilmiş BMT-nin tarixi Sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik"də qarşıdakı on beş il ərzində ölkələr "heç kəsi kənarda qoymamaq" prinsipini rəhbər tutaraq sosial-iqtisadi məsələlərlə yanaşı, məhz iqlim dəyişmələrinə qarşı mübarizənin vacibliyi və dünya ictimaiyyətinin səfərbər olmasının önəmini vurğulamışlar. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə özünün "Milli səviyyədə Müəyyən edilmiş Töhfələr" (NDC) sənədini təqdim etmiş Azərbaycan birgə təşəbbüslər vasitəsilə təsirini gücləndirməyi və davamlı gələcəyə doğru irəliləyişi sürətləndirməyi hədəfləyir. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaldılmasından ibarətdir.

Azərbaycan inkişaf etməkdə olan ölkələrdə iqlim fəaliyyətinə investisiya yatırmaq məqsədilə İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun (İMFF) yaradıldığını elan edib. Ölkəmizin təsisçi-donor olduğu Fondun kapitalının mədən (qazıntı) yanacağı istehsal edən ölkələrin, eləcə də neft-qaz və kömür hasilatı ilə məşğul olan şirkətlərin maliyyə dəstəyi ilə formalaşdırılması nəzərdə tutulur. Fondun üzvləri tərəfindən illik ödənişlər sabit məbləğdə və ya istehsal həcminə uyğun olaraq köçürüləcək. Fondun yaradılması ambisiyaları artırmaq və fəaliyyətə təkan vermək üçün COP29-un Fəaliyyət gündəliyinin bir hissəsi olaraq bu gün Azərbaycanda elan edilmiş 14 təşəbbüsdən biridir.

Azərbaycan iqlim dəyişmələrinə təsirin yumşaldılması istiqamətində ciddi addımlar atır. Cənubi Qafqazda aparıcı söz sahibi olan dövlətimiz sağlam həyat, təmiz ekoloji mühit üçün də tədbirlər həyata keçirir. Ölkəmiz qlobal ekoloji problemlərin həllində aktiv iştirak etməklə, regional və beynəlxalq səviyyədə geniş fəaliyyət göstərir. Son zamanlar ekoloji problemlərin həllinə həsr olunmuş müşavirələrin, yerli və beynəlxalq konfransların keçirilməsi bu sahənin dövlətin prioritet məqsədləri sırasına daxil edilməsinin əyani sübutudur. Beynəlxalq konvensiyaların ratifikasiyası, beynəlxalq sahədə əməkdaşlığın genişləndirilməsi, eyni zamanda milli səviyyədə qanunların qəbulu və həyata keçirilməsi sübutedici faktorlardır. Azərbaycan gərgin regionda yerləşdiyi üçün ekoloji qayğı daim diqqət mərkəzindədir.

Ətraf mühitin mühafizəsi istiqamətində IDEA İctimai Birliyinin fəaliyyəti danılmazdır. Təşkilat 2011-ci il iyulun 12-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamışdır. Təşkilatın əsas məqsədi ətraf mühit məsələləri və fəaliyyətlər barədə ictimai maarifləndirmə, gənclərlə əməkdaşlıq, ətraf mühit problemləri sahəsində təhsil və onlar üçün düzgün realizə üsullarını tapmaqdır. Burada diqqətçəkən məsələ ondan ibarətdir ki, hər bir layihə gənc nəslin təşəbbüsü, iştirakı və rəhbərliyi ilə gerçəkləşir. Ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılması məqsədilə "Bizim həyət" layihəsi də uğurla icra edilir. IDEA-nın təşəbbüsü ilə 2018-ci ilin aprel ayından başlayaraq "Yaşıllıqları bərpa edək" layihəsi çərçivəsində Abşeron və Bakı şəhərinin torpaq və iqlim şəraitinə uyğun ağacların əkilməsi planlaşdırılır. Hazırda IDEA ictimai birliyinin təşəbbüsü ilə respublikada 5 milyondan çox ağac əkilmişdir. O cümlədən ağacların kəsilməsinin qarşısının alınması, sahibsiz heyvanlar üçün sığınacaqların təşkili, ekoloji tədbirlər və müsabiqələrin keçirilməsi, sənaye və məişət tullantılarının azaldılması istiqamətində layihələr həyata keçirilir.

İqtisadiyyatın bütün sahələrinin, xüsusən sənayenin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə mənfi təsirinin artması və təbii sərvətlərin həddindən artıq istismarı ilə nəticələnmişdir. Ekoloji tarazlığın qorunub saxlanılması, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosferin çirklənmədən mühafizə edilməsi qlobal problemə çevrilmişdir. Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Ölkədə iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə bağlı mövcud olan ekoloji problemlərin həllində təmiz texnologiyaların tətbiqinə böyük yer verilir. "Yaşıl iqtisadiyyata" sərmayələrin cəlb olunması üçün ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə etmək, istilik effekti yaradan qazları azaltmaq, sənaye, nəqliyyat, tikinti və digər sahələrdə enerjidən səmərəli istifadə üzrə tədbirlər həyata keçirilir. Bununla yanaşı, "Azərbaycan Respublikasında meşələrin mühafizəsi və davamlı inkişafına dair 2022-2030-cu illər üçün Dövlət Proqramı"nın və "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın layihələri hazırlanır. Təmiz ekoloji mühitin yaradılması istiqamətində su ehtiyatlarından səmərəli istifadə, Xəzər dənizinin mühafizəsi, tullantıların idarə olunması, iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılması, müşahidə və monitorinq sistemlərinin modernləşdirilməsi, biomüxtəlifliyin qorunması, ekoturizmin və akvakulturanın inkişafı, meşə örtüyünün, yaşıllıqların mühafizəsi və çoxaldılması, çirklənmiş ərazilərin bərpası, torpaq ehtiyatlarının münbitliyinin artırılması, mineral-xammal bazasının genişləndirilməsi ölkəmizin əsas prioritet istiqamətlərindəndir.



Bu gün dünyanın xüsusi diqqət və həssaslıqla yanaşdığı məsələlərdən biri də "yaşıl enerji"yə keçiddir ki, Azərbaycan bu sahədə də nümunədir. Ölkəmizin işğaldan azad edilmiş ərazilərinin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı Tədbirlər Planı müəyyənləşdirilib. Çünki Qarabağ və Şərqi Zəngəzurun əlverişli coğrafi şəraiti və iqlim xüsusiyyətləri burada alternativ və bərpaolunan enerji mənbələrindən, o cümlədən günəş, külək və su resurslarından geniş istifadəyə münbit zəmin yaradır. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımızın enerji potensialını nəzərə alaraq həmin əraziləri "yaşıl enerji" zonası elan edib. "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində işğaldan azad olunmuş ərazilərə "Böyük qayıdış"ın, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinin reallaşdırılması çərçivəsində hazırda 30 illik işğaldan azad edilmiş ərazilərimizdə SMART infrastrukturun formalaşması istiqamətində mühüm işlər həyata keçirilir. Belə ki, bu ərazilərimizdə "yaşıl enerji" zonası yaradılmış, "ağıllı şəhər və ağıllı kənd" layihələri işlənib hazırlanmış və artıq icra olunmaqdadır.

Bütün beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən Azərbaycanın COP29-a ev sahibliyi də dünya üçün bir nümunə olacaq. Dövlətimizin başçısı vurğulayıb ki, biz öz sədrliyimizə nəinki özümüzü nümayiş etdirmək, həm də ölkəni təqdim etmək, buna həm də ən təxirəsalınmaz məsələlərin həllinə qlobal aləmdə töhfə vermək fürsəti kimi baxırıq. Bununla zəngin mədəni irsi və dinamik enerjisi ilə ölkəmiz dünya ictimaiyyətinin dövrümüzün aktual problemlərinin həlli istiqamətində bir araya gəlməsi üçün mühüm mərhələ olacağına zəmin yaradacaq.

**Mustafa KAMAL,**
**"Respublika".**